**Dilarə Xanbabayeva** [6]

## İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRINDƏ SUAL CÜMLƏLƏRİ. RİTORİK SUALLAR

İstər ingilis, istər azərbaycan dilində sorğu məqsədilə işlədilən cümlələr sual cümlələri adlanır. Yazıda bu tip cümlələri fərqləndirmək üçün cümlənin sonunda sual işarəsindən (?) istifadə olunur:

*Bu nə işdir?*

*Cavan oğlan,söylə görüm,bəs sənin məktubun yoxdurmu?*

*Səni hansı məqsədlə çağırdılar? və s.*

Sual cümlələri ya sual əvəzlikləri, ya sual ədatı, ya da yalnız sual intonasiyası ilə ifadə olunur.

*Kim bu çətin günlərdə sənə dəstək olacaq ? (sual əvəzliyi)*

*Nə vaxt valideynlərinə baş çəkməyi planlayırsan? (sual əvəzliyi)*

*Sən də mi gəldin? (sual ədatı)*

*Bəs bu gün dərzi paltarları hazır etməyəcəkdimi? (sual ədatı)*

*Sənin üçün Bakıda iş yoxdur? (sual intonasiyası)*

*Sən burada daha artıq mənfəət və gəlir əldə edə bilməzsən? (sual intonasiyası)*

Bəzi hallarda sual əvəzliyi və sual ədatı birlikdə cümlədə iştirak edir. Bu tip məqamlarda nəinki sual intonasiyası güclənir, eyni zamanda əlavə məna çaları yaranır:

*Bəs o nə üçün bütün gün sənə qulaq asmırdı?*

*Daha bəs məktəb nə üçündür?*

*Yaxşı, bəs burada cinayətkar kimdir?*

*Yaxşı, bəs indi nə edəcəyik? və s.*

Bütün bunlarla yanaşı, sual cümlələrinin yaranmasında modal sözlər də vacib rol oynayır:

*Bəlkə,mənə acığın tutduğu üçün belə deyirsən?*

*Məgər, bütün bunları bilmirdin ki? və s.*

Nəqli cümlələrdə ədat və xəbər sürətli tələffüz edilməli olduğu halda, sual cümlələrində onlar arasında müəyyən bir fasilə olmalı, hətta ədat məntiqi vurğu ilə deyilməlidir.

Sual şəkilçilərinin iştirakı ilə yaranan sual cümləri, əslində bütün məlumatı özündə ehtiva edir. Burada, sual verən sadəcə müəyyən bir məlumatı dəqiqləşdirmək istəyir. Bu tip suallara verilən cavablar qısa olur. Bir çox hallarda "bəli", “xeyr” tipli ədatlardan istifadə edilir:

-*Əşyalarınızı götürmüsünüzmü?*

-*Bəli.*

Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində sual cümlələrinin 4 tipi ayırd edilir:

1) Ümumi suallar (General questions)
2) Xüsusi suallar (Special questions)
3) Alternativ suallar (Alternative questions)
4) Ayırıcı suallar (Disjunctive questions)

Ümumi suallar - Bütöv cümləyə aid olan, sadəcə "Bəli" və ya "Xeyr" cavabı tələb edən sual cümlələrinə ümumi sual cümlələri deyilir.

A) -Do you like tea?

-Yes, I do

B) -Are you a teacher?

-No

Ümumi suallar qalxan intonasiya ilə deyilir.

Xüsusi suallar - Cümlənin müəyyən bir üzvünə aid olan və sual sözləri ilə (Who?, What?, Whose?, Which?, Whom?, When?, Where?, How?, Why?) başlayan sual cümlələri xüsusi sual cümlələri adlanır:

*Who is that girl?*

*Where are you going next summer?*

*Where did you live last year?*

*Where did you catch all the information about me from?*

*Whose coat is this? və s.*

Onu da qeyd etmək istərəm ki, xüsusi suallar enən intonasiya ilə deyilir.

Alternativ suallar - 2 və daha artıq ümumi sualdan ibarət olub, müəyyən bir seçim üçün istifadə olunan sual cümlələri alternativ suallar adlanır:

*Do you like coffee or tea?*

*Is your mother a teacher or a doctor?*

*Did you live in London or in the village?*

*Do you like reading books or listening to music?*

Alternativ sualların birinci hissəsi qalxan, ikinci hissəsi isə enən ton ilə tələffüz edilir.

[6] **Azərbaycan Dillər Universiteti. b\m.**

Ayırıcı suallar - Nəqli və qısa sual cümləsindən ibarət olan sual cümləsi ayırıcı sual adlanır. Ayırıcı sullarda önəmli bir məqama diqqət etmək lazımdır. Əgər, bu tip sual cümləsində nəqli cümlə təsdiqdədirsə, o zaman qısa sual cümləsi mütləq inkarda işlədilməlidir və əksi.

Ayırıcı sualların tələffüzü zamanı birinci hissədə enən, ikinci hissədə isə qalxan tondan istifadə olunmalıdır.

Sual cümlələrinin ritorik sual adlanan xüsusi bir növü vardır. Bu tip sual cümlələri məzmunca nəqli cümlələrə oxşayır və dolayı yolla hökm bildirir:

*Məgər, o,daşdır?*

*Səninlə bunları danışmadıqmı?*

*Sən də getsən, bunlara kimsə baxacaqmı?*

Ritorik sual cümlələrinin sonunda sual işarəsi, bəzən isə sual və nida işarələri birlikdə qoyulur:

*Səndən çox bu sözü deyən var?!*

*Bəs deyilmi bu qədər insanlara əzab verdiyin?!*

*Bəs mən sənə deməmişdimmi?!*

*Təkliyin əzab-əziyyətini azmı çəkmisən?!*

Ritorik suallar ifadə məqsədinə görə sual cümləsinin növlərindən biridir. "Ritorik" sözü yunan dilindən götürülmüşdür, "rhetor" -"natiq" deməkdir.

Əgər, ritorik suallara cavab verilirsə, bu cavab 2 formada ola bilər: "bəli" və "xeyr". "Bəli" ifadə olunan fikrin gerçəkliyini", "Xeyr" isə gerçək olmadığını bildirir. Əgər sual təsdiq formada qoyulubsa, o zaman cavab inkar olaraq meydana çıxır və əksi:

*Bugünədək ananı ziyarətə gəlmisən? (Cavab olaraq belə bir fikir ortaya çıxır ki, bugünədək ananı ziyarətə gəlməmisən.)*

*Bugünədək anamı ziyarətə gəlməmişəmmi?*

*(Cavab olaraq belə bir fikir ortaya çıxır ki, bugünədək anamı ziyarətə gəlmişəm.)*

Digər sual cümlələrindən fərqli olaraq, ritorik sualların tələffüzü emosional intonasiya üzərində cəmlənir. Hətta C.M.Axundov araşdırmalarına əsasən belə qənaətə gəlmişdir ki, ritorik sualların tələffüzü həqiqi suallara nəzərən daha sürətli baş verir, amplitud intensivliyi və tezlik diapazonu daha böyük olur.

Ritorik sualların istifadəsi zamanı cümlənin qrammatik strukturu yenidən formalaşır. Başqa sözlə desək, o artıq sual cümləsi olmur. Burada sual və nəqli cümlələr birlikdə təzahür edir. Belə ki, quruluş sual cümləsi olaraq qalsa da, məzmunca nəqli cümləyə bənzəyir.

Adətən, ritorik suallar mürəkkəb cümlələrdə, xüsusilə də tabeli mürəkkəb cümlələrdə təzahür edir.

Ritorik suallar kateqorik tələffüz + hiss həyəcana bərabərdir .

Dilşünas alim I.R.Qalperin öz araşdırmalarına əsasən belə qənaətə gəlmişdir ki, ritorik suallar strukturuna görə sual cümlələrinə bənzəsə də, məzmununa görə nida cümlələrinə yaxındır. Çünki bu tip cümlələr yüksək emosiya ilə deyilir və hiss-həyəcanla bağlı müəyyən bir anlayış -qəzəb, iddia və s. bildirir .

Ritorik suallar müəyyən bir situasiyada hər hansı bir hadisə ilə bağlı danışarkən fikri daha emosional, ifadəli, rəngarəng etməyə şərait yaradır.Bu da, ritorik sualların üslubi xüsusiyyətlərini ifadə edir. Bu baxımdan qeyd edə bilərəm ki, bu tip sualların leksik xüsusiyyətləri ilə müqayisədə, üslubi xüsusiyyətləri daha çox önəm daşıyır.Bunu həm azərbaycan, həm ingilis dilinə aid ritorik sual nümunələrində müşahidə edə bilərik.Tanınmış, görkəmli xalq şairi Səməd Vurğun özünün məşhur "Azərbaycan" şeirində ritorik sualdan istifadə edərək öz fikrini daha emosional və rəngli ifadə etmişdir:

*Ayrılarmı könül candan ?!*

Bu da o deməkdir ki, ritorik sualların üslubi xüsusiyyətləri dedikdə onların bədii üslubda işlənməsi və bu zaman daşıdığı xüsusiyyətləri nəzərdə tutulur. Bununla bağlı olaraq, ilk növbədə bədii üslub haqqında bir qədər məlumat vermək istəyirəm.

Fikrin bədii ifadə və üslub vasitələri ilə ifadə olunduğu üslub bədii üslub adlanır. Qeyd etməliyəm ki, bədii üslub azərbaycan ədəbi dilində mühüm yer tutur. Bu üslub eyni zamanda bədii dil də adlanır.

Bədii üslub mahiyyətinə görə kütləvi, tarixən isə olduqca qədim bir üslub hesab edilir. Bu üslub ədəbi dilin formalaşdığı ilk dövrdən onun əsasını təşkil etmişdir.

Bədii üslubun daxilində də janrlarla əlaqədar bir sıra başqa üslublar da olur:

1) qəzəl üslubu;
2) qoşma üslubu;
3) dram üslubu;
4) hekayə üslubu;
5) satira üslubu və s.

Ritorik suallarda məntiqi hökm ifadə edilir.

Ritorik suallar bir üslubi vasitə kimi digər vasitələrin yaranmasında iştirak edir. Belə üslubi vasitələrdən biri də "suspense" adlanan vasitədir: *Would he ever find his way?* Bu tip suallar heç bir cavab tələb etmir və dinləyicinin fikrini cəlb etməyə xidmət edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Aytən Bəylərova – Bədii dildə üslubi fiqurlar. Nurlan Bakı - 2008 - 212 s.
2. Nizami Cəfərov, Zaman Əsgərli -Müntəxəbat
3. И.Р.Гальперин – Стилистика Английского Языка (Москва «Высшая школа» 1981)

4. Гальперин И.Р. (Гальперин И.Р., Стилистика английского языка,
5. Издательство: М.: Высшая школа, 1977 г.)
6. Скребнев Ю.М. Основы стилистики английского языка.
7. Shakhovsky - English stylistics (Стилистика Английского Языка)
8. M.A.Huseynova, G.Yunusova .English Stylistics Baku 2017, 272 s.
9. Galperin I.R. Stylistics.
10. 9. Kukharenko V.A. Book of Practice in Stylistics.
**Açar sözlər:** *sual cümlələri, nəqli cümlə, ritorilk suallar, bədii ədəbiyyat*
**Ключевые слова:** *вопраситeльные слова, повествовательное. предложение, риторические вопросы*
**Keywords:** *interrogative questions, affirmative questions, ritorical questions*

## SUMMARY

The presented article deals with interrogative questions in the Azerbaijani and the Englilh languages also with ritorical questions. Abundant examples enriches the article.

## РЕЗЮМЕ

В статье рассматриваются виды предложений такие как повествовательные, вопросительные и побудительные,также риторические вопросы.

## XÜLASƏ

Məqalədə İngilis və Azərbaycan dillərində cümlələrə nəzər salınır,ritorik suallara xüsusi diqqət ayrılır,nümunələr mövzunu zənginləşdirir.

**Rəyçi: dos. L.Ələkbərova**